İPƏK YOLU, No.1, 2025, səh.121-129
https://doi.org/10.30546/SI.2025.1.5.043

# TÖRƏDİCİ QRAMMATİKA VƏ PSİXOLİNQVİSTİKA

**Nərmin Əliyeva**

AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan
e-mail: rajabova.narmin@gmail.com

**Xülasə.** Noam Çomskinin ideyalarına əsaslanan törədici qrammatika dili təsvir etmək üçün formal modellər təqdim edir. Psixolinqvistikada o, nitqin yaranması və qavrayış mexanizmlərini öyrənir. İşin yeniliyi insanın təfəkkürünün və ünsiyyətinin əsasını təşkil edən linqvistik proseslərin öyrənilməsi üçün perspektivlər açan idrak və neyrolinqvistik məlumatların inteqrasiyasıdır.

**Açar sözlər:** Generativlik, psixolinqvistika, dil, idrak, nitq.

**GENERATIVE LINGUISTICS AND PSYCHOLINGUISTICS**

**Narmin Aliyeva**
*Institute of Linguistics named after Nasimi, ANAS, Baku, Azerbaijan*

**Abstract.** Generative grammar, based on the ideas of Noam Chomsky, offers formal models for describing language. In psycholinguistics, it explores the mechanisms of speech production and perception. The novelty of the topic lies in the integration of cognitive and neurolinguistic data, which opens up prospects for studying the language processes underlying human thinking and communication.
**Keywords:** Generativity, psycholinguistics, language, cognition, speech.

**ГЕНЕРАТИВНАЯ ЛИНГВИСТИКА И ПСИХОЛИНГВИСТИКА**

**Нармин Алиева**
*Институт языкознания имени Насими, НАНА, Баку, Азербайджан*

**Резюме.** Генеративная грамматика, основанная на идеях Ноама Хомского, предлагает формальные модели описания языка. В психолингвистике она исследует механизмы порождения и восприятия речи. Новизна темы заключается в интеграции когнитивных и нейролингвистических данных, что открывает перспективы для изучения языковых процессов, лежащих в основе человеческого мышления и общения.
**Ключевые слова:** Генеративность, психолингвистика, язык, познание, речь.

## 1. Giriş

Psixolinqvistika iki elm sahəsinin - dilçilik və psixologiyanın qovşağında yaranmış və onun obyekti dil və nitqin psixoloji tərəflərinin tədqiqidir. İnsan beyninin dili necə idarə və emal etdiyini, dərk etdiyini, rəy bildirdiyini və ya dil yaratdığını deşifrə edən dil elminin öyrənilməsi psixolinqvistikadır [3, s.110]. Onun mərkəzi problemi dilin saxlanması, istifadəsi və mənimsənilməsinin əsasını təşkil edən idrak prosesləri, onların beyində müşahidə olunan sinir fəaliyyəti ilə əlaqəli olmasıdır. Bundan əlavə, psixolinqvistlər bir fenomen kimi dillə bağlı uzun müddət davam edən bəzi suallara açıqlıq gətirmək üçün bu vasitələrdən istifadə edirlər [8].

Maraqlıdır ki, psixolinqvistik baxışların təşəkkül tapdığı dövrlər ABŞ-da biheviorist (davranış) psixologiyanın sürətli inkişafı ilə bağlıdır. O dövrdə psixolinqvistikaya sırf psixoloji və sırf linqvistik aspektdən yanaşma mövcud idi. Birinci yanaşmanın tərəfdarları arasında xüsusi seçilən Ç. Osqud idi və o, psixolinqvistik modelin qurulmasında davranış

nəzəriyyəsindən çıxış edir, onu nitq və onun qavranılması materialında konkretləşdirirdi. Bunun əksinə olaraq, N. Çomski tamamilə fərqli, artıq linqvistik mövqedən özünün təklif etdiyi transformasiya modelindən çıxış edirdi. Təsadüfi deyil ki, psixolinqvistikanın linqvistik aspekti N. Çomskinin transformasiya qrammatikanın təşəkkülü və inkişafı ilə başlanmışdı. "TQ linqvistik səriştənin nəzəriyyəsidir: o, linqvistik davranışa (performans) daxil olan real vaxt prosesləri haqqında heç nə demir və bunun əvəzinə şifahi əsaslandırma ilə məşğul olan zaman bir çox digər töhfə verən amillərlə yanaşı, natiqin istifadə etdiyi əsas statik biliyə diqqət yetirir" [9]. Transformasiya-törədici dilçiliyin əsas müddəasına, yəni linqvistik nəzəriyyənin mərkəzində danışıq fəaliyyəti deyil, dil səriştəsinin durduğu fikrinə sadiq olaraq psixolinqvistlər dilin başa düşülməsi məsələlərinin öyrənilməsinə diqqəti artırmış, lakin nitqin yaranması haqqında tədqiqatlara isə bir o qədər əhəmiyyət verməmişdi. "Nitq sosial qrupdan sosial qrupa keçərkən təyin edilə bilən məhdudiyyət olmadan dəyişən insan fəaliyyətidir, çünki o, qrupun sırf tarixi irsi, uzun müddət davam edən sosial istifadənin məhsuludur" [7, s.4]. Ümumiyyətlə, törədici dilçiliyin fərqləndirici xüsusiyyətlərindən biri bu təlimdə dilçiliyin dil haqqında elm kimi deyil, dili bilmək haqqında elm kimi nəzərdən keçirilməsidir. Nitqə hər hansı bir mücərrəd anlayış deyil, insan təfəkkürünün, daha dəqiq desək, onun bir hissəsi olan insanın dil aparatının xüsusiyyəti qismində baxılır.

## 2. Törədici qrammatika və psixolinqvistika

Erkən psixolinqvistik tədqiqatlar Çomskinin transformasiya qrammatikasının psixoloji cəhətdən real olduğu və dil istifadəçisi tərəfindən işlədilən dəqiq prosesləri təmsil etdiyi fərziyyəsini (yazışma hipotezi) qəbul etdi. İstifadəçinin bir cümləni dərin strukturda formalaşdırdığı, sonra onu bir sıra transformasiyalardan keçirərək düşündüyü ehtimal edilirdi [6, s.90]. N. Çomski insan dili ilə heyvan dili arasındakı fərqli cəhətləri nəzərdən keçirir. Dil səriştəsinin insanda anadangəlmə qabiliyyət olduğu və bu səriştənin insanın əqli qabiliyyətindən asılı olmadığını göstərir. Müəllif insanın dil səriştəsini təyin edən prinsiplərin insan həyatının digər sahələrinə də tətbiq oluna biləcəyi qənaətinə gəlir. Lakin onu qeyd eləmək lazımdır ki, linqvistik struktur anlayışlarının anlamın digər sistemlərinə tətbiqinin genişləndirilməsi məsələsi açıq olaraq qalır. "Generativ nəzəriyyə inkişafının müxtəlif mərhələlərində sintaktik quruluşların rekursiv törəməsi üsulları haqqında fikirləri dəyişdi. Əgər nəzəriyyənin ilkin versiyalarında müxtəlif rekursiv əməliyyatların köməyi ilə müxtəlif uzunluqlu dərin sintaktik formalar əmələ gətirən bilavasitə komponentlər mövcud idisə, ən son versiyada, Minimalist proqramında yalnız iki əsas rekursiv əməliyyat qalır - sintaktik strukturların tərkibində elementlərin cüt-cüt "birləşməsi" və sual formalarının formalaşması üçün zəruri olan elementlərin "hərəkəti" [2, s.100].

"Çomskiyə görə, dilin mənimsənilməsi prosesinin öyrənilməsinə yanaşmanı şərtləndirən əsas məqam ondan ibarətdir ki, müəyyən bir dildə danışan hər bir insanın konkret dilin ana dili danışanlarına xas olan xüsusi strukturu (psixi strukturu) vardır, yəni ingiliscə

danışanlara xas olan belə bir quruluş fransız və ya Çin dilində danışanların strukturundan fərqlənir" [1]. N. Çomski üçün yetkin insanın danışığının linqvistik təhlili və uşağın danışığı mənimsəməsi problemləri bir-birindən ayrılmazdır və nitqin mənimsəməsinin əsas vəzifəsi dilin ciddi qaydalardan ibarət olması və eyni zamanda çox məhsuldar törəmə sistem mahiyyəti daşımasından ibarət olmasıdır. N. Çomski hesab edir ki, yeni cümlələrin törəməsi prosesi müəyyən linqvistik prinsiplər çərçivəsi ilə məhdudlaşır və ən azı bu prinsiplərin bir hissəsi anadangəlmədir. Beləliklə, uşaq nitqin mənimsənilməsinin ilk mərhələlərində dil qaydalarının izahına ehtiyac duymur, çünki bu qaydalar ona insan beyninin bioloji xüsusiyyətləri sayəsində anadangəlmə verilmişdir.

Sintaksis müəyyən dillərdə cümlələrin qurulduğu prinsip və proseslərin öyrənilməsidir (müəllif vurğusu). Müəyyən bir dilin sintaktik tədqiqinin məqsədi təhlil olunan dilin cümlələrini yaratmaq üçün bir növ cihaz kimi baxıla bilən qrammatika qurmaqdır [4, s.11]. Dilin başa düşülməsi prosesində cümlənin sintaktik təhlili özü ilə bütövlükdə cümlənin başa düşülməsi prosesinin tərkib hissəsini təcəssüm etdirir. Hesab edilir ki, psixolinqvistik nöqteyi-nəzərdən, insan tərəfindən cümlənin başa düşülməsi aparatı özündə hər sözün fonetik-fonoloji təhlilini, leksik və morfoloji informasiyanı, cümlənin sintaktik struktur quruluşunu (tərtibini) və nəhayət, onun semantik şərhini ehtiva edir. İnsanın cümləni qavraması prosesinin yuxarıda adı çəkilən hissələrinin hər birini modelləşdirmək cəhdləri təbii maraq doğurur. Görünür, qavrayış aparatının modullarının funksiyaları arasında belə hədd qoyulma mütləq səciyyə daşımır; modullar cümlənin təhlilinin müxtəlif mərhələlərində bir-birlərinə qarşılıqlı təsir edir.

Müasir Amerika psixolinqvistikasında cümlənin sintaktik təhlili çap olunmuş əsərlərə və konfransların sayına görə aparıcı yerlərdən birini tutur. Bu yüksək maraq, ümumilikdə, təkcə cümlənin sintaktik təhlilinin nəzəri dilçiliyin diqqət mərkəzində olması ilə deyil, həmçinin cümlənin qavranılması prosesinin məhz bu hissəsini eksperimental metodların köməyi ilə tədqiq etməyin mümkünlüyü ilə bağlıdır.

Cümlənin sintaktik təhlili cümlənin sintaktik strukturunun müəyyənləşdirilməsi prosesini təcəssüm etdirir. Törədici qrammatika nəzəriyyəsinə uyğun olaraq, cümlənin sintaktik strukturu ayrı-ayrı ifadə qrupları və terminal rəmzlərdən (sözlərdən) ibarət ifadə göstəricisi şəklində mövcuddur. Sintaktik "ağac" onun hissələrinin struktur asılılığını müəyyənləşdirməyə və onların xüsusiyyətlərini təsvir etməyə imkan verir. Ağacın qurulmasından başqa, cümlənin sintaktik təhlili özündə həmin ağacın qurulmasının yoxlama və düzəltmə prosedurlarını ehtiva edir.

Cümlənin sintaktik təhlilinin psixolinqvistik modellərinin mərkəzi problemi insanların cümlənin strukturunu təqdim etmək üçün söz zəncirinin sintaktik "ağac" şəklinə necə salması ilə bağlı məsələdir. Görünür, bu suala cavab tapmaq o qədər də asan deyil. Başlıca olaraq, ona görə ki, cümlənin sintaktik təhlili qeyri-adi dərəcədə həyata keçirilir. Bunun nəticəsində, bilavasitə cümlənin sintaktik təhlili prosesində həyata keçirilən analitik əməliyyatları səciyyələndirmək hələ olduqca çətin görünür. Söhbət bu və ya digər sintaktik "ağacın" qurulmasına sərf olunan zamanın (milli saniyələrdə) ölçülməsi imkanından və bununla,

müxtəlif “ağacların”, müxtəlif sintaktik strukturların nə qədər daha tez təhlil edilməsi nöqteyi-nəzərindən müqayisə imkanından gedir. Bu planda çoxmənalı cümlələr, yəni iki və daha artıq fərqli təsəvvür olunan sintaktik quruluşa malik cümlələr xüsusi əhəmiyyət kəsb edir.

Sintaktik cəhətdən çoxmənalı cümlələr iki cür olur: müvəqqəti çoxmənalı və qlobal çoxmənalı. Anlama prosesində cümlənin sintaktik təhlili nəzəriyyəsində cümlənin çoxmənalı cümlələrə, yəni müəyyən anadək iki və daha çox təsəvvürlərin mümkün olduğu, bir konkret yerdə isə bu çoxmənalılığın yalnız bir təsəvvürün lehinə həll olunduğu cümlələrə xüsusi diqqət ayrılır. Bu, onunla bağlıdır ki, yalnız belə cümlə, cümlə təhlilinin necə getdiyi, hansı çətinliklər yarandığı və düzəlişin necə aparıldığı haqqında fikir yürütməyə imkan verir. Qlobal çoxmənalı cümlələr bu mənada tam yekunlaşdıqdan sonra, təhlilin xarakteri haqqında mülahizə söyləmək imkanı yaradan materialı təcəssüm etdirir. Bu, heç də o demək deyil ki, cümlənin sintaktik təhlili nəzəriyyəsində birmənalı və qlobal çoxmənalı cümlələrə diqqət ayrılmır. Ancaq məhz müvəqqəti çoxmənalı cümlələr, cümlənin inkişafı prosesindəki sintaktik təhlili xarakterizə edən analitik əməliyyatları tədqiq etmək üçün ən yaxşı imkan yaradır.

Qeyd etmək maraqlıdır ki, müvəqqəti çoxmənalı cümlələr iki cür olur: meydana gələn çoxmənalılığın təhlili zamanı ixtiyarı (şüuri) çətinliklər yaratmayan cümlələr və hətta başa düşmək üçün xüsusi səylər tələb etdiyi məlum olduqda belə, böyük çətinlik törədən cümlələr. İkinci tip cümlələr qəbul edilməz hesab edilir. Psixolinqvistika qəbuledilməz cümlələr nəzəri sintaksisdə qrammatik cəhətdən düzgün olmayan cümlələr kimi mərkəzi yer tutur. Qrammatik cəhətdən qeyri-dəqiq cümlələr qrammatikanın prinsiplərini müəyyənləşdirməyə və təsbit etməyə kömək etdiyi halda, qəbuledilməz cümlələr, hal-hazırda cümlənin sintaktik təhlili prosesi zamanı insan tərəfindən həyata keçirilən analitik əməliyyatların xarakterinə aydınlıq gətirməyə imkan verən, demək olar ki, yeganı üsuldur. Bununla belə, görünür, qrammatik cəhətdən qeyri-səhih olan cümlələrin qəbuledilməz olması heç də mütləq deyil.

Çoxmənalılığın aradan qaldırılması ilə bağlı analitik əməliyyatların xarakteri və növü üç əsas parametrlərdən biridir və bu parametrlər insanın cümləni başa düşməsi prosesində sintaktik təhlil modellərini fərqləndirir. İkinci parametr çoxmənalılığın aradan qaldırılması prosesinə təsir edən bilən informasiya növlərini müəyyənləşdirir. Burada iki variant mövcuddur: 1) Çoxmənalılığım aradan qaldırılmasında yalnız struktur (sintaktik) informasiya nəzərə alına bilər; 2) Çoxmənalılığın aradan qaldırılmasına yalnız sintaktik deyil, iyerarxik quruluşun daha yüksək səviyyələrinə aid olan semantik, praqmatik, kontekstual informasiya və dünya reallığı haqqında haqqında bilik təsir edə bilər.

Bir çox psixolinqvistlər və dilçilər düşünür ki, dilçiliyin son məqsədi dilin struktur cəhətdən quruluşunu və ya onun necə fəaliyyət göstərməsini başa düşmək deyil. Belə ki, insan dilinin mahiyyətini daha dərindən öyrəndikcə müvafiq olaraq insan təfəkkürünün prosesləri haqqında daha çox bilik əldə edilir. Nəticə etibarilə, dilin tədqiqi insan təfəkkürünün öyrənilməsidir. N. Çomski yazır ki, dil dərin və geniş mənada təfəkkürün əksidir və insan ağlının məhsulu olaraq hər bir şəxsdə bizim iradə və ya şüurumuzdan kənar əməliyyatlar

vasitəsilə yaranır. Bu fikir əslində sırf dilçilik tədqiqatlarından çox-çox kənara çıxır. Belə ki, dil tədqiqi daha geniş sahə sayılan koqnitiv elmin bir hissəsi kimi qəbul olunur. Koqnitiv təlimin mərkəzi problemi mental kateqoriyalara müraciət vasitəsilə bu və ya digər hadisələrin izahının mümkünlüyü və məqsədəuyğunluğu haqqında təsəvvürdür.

Amerika və ingilisdilli psixolinqvistlərin çoxu Amerikada törədici qrammatikanın müxtəlif variantlarda daha çox təsirə malik olduğunu göstərir, Amerika ənənələrində psixolinqvistika N. Çomskinin ideyalarının nə dərəcədə müşahidə olunan nitq davranışına uyğun olduğunu yoxlamağa yönəlmişdir. Bu baxımdan bəzi müəlliflər uşaq nitqinə, digərləri sosial qarşılıqlı əlaqədə dilin roluna, üçüncülər isə dilin qarşılıqlı əlaqəsinə və mənimsəmə proseslərini nəzərdən keçirir.

Amerika psixolinqvistikası törədici qrammatikaya yönəlir, bütün cümlələrin biliyi qeyri-mümkündür, dilin əsasında müəyyən məhdud qaydalar sistemi - dilin qrammatikası durur. O, saysız "doğru" cümlələrin sayını verir. Dil daşıyıcısı və eşidəni hər dəfə törədici qrammatikanı işə salır ki, onun vasitəsilə "düzgün" söyləmlər qursun. N. Çomski iki termin irəli sürür: dil bacarığı və dil aktivliyi. Alimin fikrincə, dil bacarığı ilkindir, o, dil aktivliyini müəyyənləşdirir. N. Çomskinin törədici qrammatikası dərin struktur anlayışı ilə koqnitiv dilçiliyin yaranmasına yol açdı. İlkin planda dil faktlarının izahı ideyası önə çıxır: törədici nəzəriyyədə insanın dil bacarığındakı dərin struktura açıq bəzi müddəalar tədqim olunur (bu törədici qrammatikanı digər proqramlardan fərqləndirir), digər proqramlar isə dil faktlarını qeyri-dil təbiəti faktları baxımından izah edir. Koqnitiv dilçilik bütün münasibətlərdə transformasion-törədici qrammatika ideyaları özündə ehtiva edir, əsasən, dilə törədici qurğu kimi, hər hansı bir danışanın mental reprezentasiyası, mental proseslərinin modelləşdirilməsi kimi nəzərdən keçirir. Koqnitivistika N. Çomskinin insanın dil bacarığının tədqiqi ideyasını inkişaf etdirir. Onlar nitqin dil vasitəsilə törəməsi və qavranılmasını formalaşdırır. N. Çomskinin dil verilənlərinin mental reprezentasiyası haqqında olan kitabı pioner əsərdir, biliklər reprezentasiyası və insanın mentallığında dil sistemi sahəsində nümunədir. Dil bacarığı haqqında məsələyə həsr olunmuş və kompetensiya anlayışının izahına danışanın dil biliyi və dil haqqında biliyin anadangəlmə mənbə kimi o, dil haqqında mental reprezentasiya sistemi daxili sistem anlayışı ilə əlaqələndirir. N. Çomskinin mental reprezentasiyası haqqında fikirlərinə əsaslanaraq, koqnitivistlər reprezentasiyanın bəzi formalarının məlumatı alma, yenidən işlənməsi və saxlanması üsullarının nəinki elmi təsvirlərdə, eləcə də insan beynində şüurun müəyyən strukturlarında mövcudluğu irəli sürdülər. N. Çomski özü də qeyd edir ki, alimlər dilin xarici görünüşündə, onun xarici formaları ilə məşğul olmuşlar, indiki dövrdə beynin daxilində onun xüsusiyyətlərini, dilin daxili strukturlarını tədqiq etməlidir. Tədqiqatçılar N. Çomskinin verilən konsepsiyasına müxtəlif cür yanaşır. Bununla belə, çoxları hər hansı biliyin mental reprezentasiya kimi mövcudluğu və dilin onların obyektivləşməsi üçün formalaşması ideyasını qəbul edir. Başqa sözlə desək, insanda dilə qədər (ontoqenezdə) müəyyən konseptual sistemin mövcudluğu mövqeyi yavaş-yavaş öz yerini tutur; dil işarələr sistemi əsas, əvvəl mövcud olmuş və inkişaf edən sistemlə qarşılıqlı əlaqədə formalaşır.

“1950-ci illərin ortalarında Çomski tərəfindən elmi istifadəyə verilən "törədici (generativ) qrammatika" termini hazırda iki fərqli mənada istifadə olunur. Orijinal, daha dar və daha texniki mənada o, xüsusi dil sistemlərini təsvir edən qaydalar toplusuna istinad edir. İkinci, daha ümumi mənada, dilin strukturunu təsvir etmək üçün nəzəri və metodoloji prinsiplərin bütöv bir sistemini səciyyələndirir” [10]. Törədici qrammatikanın yaranması müharibədən əvvəl modelləşdirmə, kompüter inqilabı, genetik kod modelinin qurulması, maşın tərcüməsi və riyazi dilçiliklə əlaqələndirirlər. N. Çomskinin ideyaları tətbiqi dilçilik üçün vacibdir, eləcə də dilin formal modellər nəzəriyyəsi, riyazi dilçilik onun ideyaları bazasında inkişaf etmişdir. Riyazi dilçiliyin vacib bölmələrindən biri olan formal qrammatika nəzəriyyəsi N. Çomskinin işləri hesabına yaranmışdır və qanunauyğunluqların təsviri üsullarının öyrənilməsinə həsr olunmuşdur. Beləliklə, qanunauyğunluqlar “formal qrammatika”nın – mücərrəd “mexanizmin” qurulması yolu ilə təsvir olunur. Formal qrammatikanın daha geniş istifadə olunmuş növü törədici və Çomskinin qrammatikası adlanır. Törədici nəzəriyyə hələ də mübahisə predmeti olaraq qalır, o, kardinal olaraq dəyişmişdir. Son dövrlər N. Çomski tərəfindən düzəldilən korrektivlər transformasiya modelinin semantikləşməsinə gətirib çıxarır. Onlar qaydalar təsvirinin bütün sisteminin yenidən işlənməsi, transformasiya əməliyyatların sayının azalması, rekursiv prosedurun dəyişməsi, leksikonun təşkili və s. ilə bağlıdır. Bütün bu verilənlər modelin texniki aspektlərinə aiddir. Qeyd etmək lazımdır ki, törədici nəzəriyyə sonradan bəzi dəyişikliklərə məruz qalmışdır. Bununla belə, qeyd etmək lazımdır ki, o, ümumi ənənələrə xas olanları reallaşdıraraq müasir dilçilikdə əhəmiyyətli yer tutur. Törədici paradiqmin getməsi ilə yeni istiqamətin – koqnitiv dilçiliyin yaranmasını görmək olar. Bəzi dilçilər belə hesab edir ki, XX əsrin sonunda bir-birini tamamlayan çoxlu linqvistik nəzəriyyələr yaranır, bu nəzəriyyələr təbii dilin müasir şərhini vermişdir.

Törədici dilçiliyin inkişafının sonrakı mərhələsi N. Çomskinin “Sintaktik nəzəriyyənin aspektləri” və “Dil və təfəkkür” kitabları ilə bağlıdır. Bunlardan birincisində törəmə modelin ardıcıl izahı, ikincisində isə formal aparata, demək olar ki, toxunmadan həmin nəzəriyyənin məzmun tərəfi haqqında fikirlər yer almışdır.

1956-57-ci illərdə Çomskinin “Sintaktik strukturlar” əsəri çap olundu. Həmin əsərdə o, cümlələrin törəməsi qrammatikasını, qrammatikliyin əlamətlərinin təsvirini və əsasən dil strukturu nəzəriyyəsini konkret bir dildən asılı olmayaraq işləyib hazırlamağı qarşısına məqsəd qoymuşdu. Təbiidir ki, N. Çomski öz nəzəriyyəsini ingilis dilinin materialları üzərində qurmuşdu. O, elə qrammatika, elə mexanizm yaratmaq istəyirdi ki, bütün qrammatik formaları düzəldə bilsin və yalnız dildə işlənməyən cümlələri deyil, həm də işlənə bilən bütün cümlələrin strukturunu şərh etsin, qrammatika dildə bu cümlələrə struktur təsvir vermək iqtidarında olsun, hərçənd ki, cümlələr məna ilə birbaşa bağlı olmaya da bilər. Qrammatika məzmunsuz olurmu sualına N. Çomski qəti şəkildə rədd edir, belə sualı mənasız sayır. Bu sualı belə müqayisə edir: Danışanın saçının rəngini bilmədən qrammatikanı necə qurmaq olar? Feil strukturu ilə semantik

strukturu arasındakı əlaqələrin öyrənilməsi ümumi dil nəzəriyyəsinin işidir, sintaksis nəzəriyyəsində buna ehtiyac yoxdur.

N. Çomski "Sintaktik nəzəriyyənin aspektləri" əsərində yazır: "Linqvistik nəzəriyyə, ilk növbədə, ideal danışan-dinləyən"i nəzərdə tutur. Bu "danışan - dinləyən" tam eynicinsli nitq qrupunda mövcuddur, öz dilini kamil şəkildə bilir və yaddaşın zəifliyindən, unutqanlıqdan, diqqətin və marağın dəyişməsindən, real istifadə zamanı öz dilini tətbiq edərkən baş verən səhvlərdən asılı deyil. Düşünürəm ki, müasir ümumi dilçiliyin banilərinin mövqeyi, məhz belə olmuş və onun yenidən nəzərdən keçirilməsi üçün heç bir güclü əsas gətirilməmişdir" [5, s.47]. Aydındır ki, N. Çomski burada hər kəsdən əvvəl, məhz F.de Sössürü nəzərdə tutur.

Törədici dilçiliyə görə, insanın dil aparatındakı sintaktik təsvir iki səviyyədən ibarətdir: dərin (alt) struktur səviyyəsi və üst struktur səviyyəsi. Bu səviyyələr öz aralarında transformasiyalar vasitəsilə əlaqəlidir11 və onlar bir dərin strukturu bir neçə üst struktura və əksinə çevilə bilər. Beləliklə, bir növ insanın dil haqqında biliyini dil fəaliyyəti ilə məşğul olan digər modelllərdən daha dəqiq əks etdirən hesablama sistemi əldə edilir.

Bu qaydaları tətbiq edərək N. Çomski ingilis dilinin qrammatikasının əvvəllər çoxsəviyyəli yanaşma olmadan nə izah, nə də təsvir oluna bilməyən əhəmiyyətli hissəsini təsvir etmişdir. O göstərmişdir ki, vasitəsiz strukturların formalaşması qaydaları məhdud olduqları üçün onlar sonsuz sayda dərin strukturlar yarada bilsələr də, sonsuz sayda real olan üst strukturlar yaratmaq qabiliyyətində deyillər. Bu xüsusilə sual, inkar və bəzi başqa cümlələrə aiddir. Onun konsepsiyasını sxem şəklində belə göstərmək olar:




Standart nəzəriyyədə transformasiya qaydası iki komponenti ehtiva edir: struktur təsvir və struktur dəyişiklik. Bu konsepsiya çərçivəsində digər nəzəriyyə "Genişləndirilmiş standart nəzəriyyə" adlanır. Genişləndirilmiş standart nəzəriyyənin əvvəlki nəzəriyyədən əsas fərqi dil vahidlərinin semantik şərhinə və nəzəriyyənin leksik komponentinə xüsusi diqqət ayrılmasıdır. Bu onunla əsaslandırıla bilər ki, heç də bütün dil prosesləri sırf sintaktik mahiyyət daşımır və insanın dil aparatı çoxsaylı leksik və semantik interpretasiya qaydalarını ehtiva edir.

Bu nəzəriyyə törədici nəzəriyyədən ciddi fərqlənir. Törədici semantikanın tərəfdarları belə bir fikir irəli sürmüşlər ki, bir kökdən olan feillə feili isim arasındakı derivasiya

münasibətlərinin də daxil olduğu bütün dil prosesləri öz təbiətinə görə transformasiya mahiyyət daşıyır. Məsələn:

a) Qoşun şəhəri dağıtdı.

b) Şəhərin (qoşun tərəfindən) dağıdılması.

Sözsuz ki, *dağıtdı* və *dağıdılması* sözləri morfoloji cəhətdən bir-biri ilə bağlıdır, lakin törədici semantika tərəfdarları sübut etmək istəyirdilər ki, bu münasibət əslində transformasion səciyyə daşıyır və (b) variantı (a) dərin strukturdan üst struktura derivasiyadır.

Törədici semantikaya əks olaraq, leksik "Genişləndirilmiş standart nəzəriyyə" inkişaf etməyə başladı. Bu nəzəriyyə yalnız bütövlükdə dilin semantik komponentlərinin zəruri qaydalarını ehtiva etmir, həmçinin ayrı-ayrı dillərin zəngin leksikasına ciddi fikir verirdi. Bunsuz elmi cəhətdən əsaslandırılmış nəzəri qrammatikasının təsəvvür etmək mümkün deyil.

Əsas ideya prinsiplər və parametrlər nəzəriyyəsinin təxminən universal hesab oluna bilən sintaktik mədudiyyətlər irəli sürməsidir və bunlar transformasiyanın yaradıcı qabiliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Daha sonra sintaktik məhduddiyyətlərlə səciyyələnən "Genişləndirilmiş standart nəzəriyyədən" "İdarəetmə və əlaqələndirmə nəzəriyyəsinə" keçid baş verir. Burada dil təsəvvürlərinin əsasında duran prinsiplər diqqət mərkəzinə gətirilir. Beləliklə, bütün təbii dillə üçün ümumi olan universal prinsiplərin axtarışı əsas məqsədə çevrilir. Bu nəzəriyyədə ayrı-ayrı dilləri səciyyələndirən xüsusi qaydalar yoxdur. Onların yerini universal səciyyə daşıyan ümumi məhdudiyyətlər tutur.

Belə bir cümləyə fikir verək: Y.V. Çəmənzəminli "Qılınc və qələm" romanını yazmışdır. Bu cümləni transformasiya edək: "Qılınc və qələm" romanı Y.V. Çəmənzəminli tərəfindən yazılmışdır.

N. Çomski qeyd edir ki, bu transformasiyanın cümlələrə təsadüfi tətbiqi ilə düzgün cümlələr əldə etmək olar. Məsələn:

O dedi ki, Kamil idarədə işləyir.

Kamil deyib ki, idarədə işləyir.

Lakin bunun belə olmadığını görmək olar. N. Çomski müxtəlif şərtlər adı altında transformasiyaların tətbiqinə ümumi məhdudiyyətlər təklif edilir.

**Nəticə.** Generativ yanaşma dilçilik və psixologiya arasında əlaqə yaradır; generativ yanaşma semantikada dəyişiklik yaradır və bu çox vacibdir, generativ yanaşma qrammatik və semantik komponentlərin formallaşdırılmasının mümkünlüyünü nümayiş etdirir.

N. Çomskinin nəzəriyyəsi əvvəl Amerika, sonra dünya dilçiliyində inqilabi çevriliş yaratdı. Onun ideyaları psixolinqvistikada üç münasibəti formalaşdırmışdır:

1) Dilin biheviorist şərhinin tənqidi və linqvistik nəzəriyyəsi məqsədlərinə baxış koqnitiv dilçiliyin inkişafında həlledici rol oynadı;

2) N. Çomskinin dilin mənimsənilməsi haqqında məntiqi problem kimi formalaşdırma məsələsi;

3) Eksperimental psixolinqvistikanın əsası qoyulmuş transformasiya modeli.

Törədici qrammatika universal dil strukturlarının mövcudluğunu təsdiq edir, bu da dil və idrak prosesləri arasında sıx əlaqəni vurğulayır. Törədici qrammatikaya əsaslanan psixolinqvistikada aparılan tədqiqatlar insanların dili necə istehsal etdiyini və qavradığını başa düşməyə kömək edir. Alınan biliklər neyrolinqvistikada, süni intellekt sistemlərinin yaradılmasında və nitq pozuntularının öyrənilməsində istifadə olunur. Törədici qrammatikanın nevrologiya və maşın öyrənməsi kimi yeni texnologiyalarla inteqrasiyası bizə dil prosesləri və onların beyində həyata keçirilməsi haqqında anlayışımızı genişləndirməyə imkan verir.

## Ədəbiyyat


1. Абдурахманова Н.Г. (2015), Генеративная грамматика и концепция врожденных идей. Актуальные Проблемы Гуманитарных и Естественных Наук, No.(7-1), 216-220.
2. Жаботинская С.А. (2018), Генеративизм, когнитивизм м семантика лингвальных сетей. К.: Київ, ун-т ім. Б. Грінченка, 99-141.
3. Balamurugan K., Thirunavukkarasu S. (2018), Introduction to psycholinguistics - a review. Studies in Linguistics and Literature, Vol.2, No.2, 110-118.
4. Chomsky N. (1957), Syntactic Structures. Berlin: Mouton de Gruyter.
5. Chomsky N. (1985), Aspects of the Theory of the Syntax. The M.I.T. Press, 247.
6. Field J. (2005), Psycholinguistics: The key Concepts. Taylor & Francis Group, 387.
7. Sapir E. (1921), Language. An introduction to the Study of Speech. New York: Harcourt, Brace, 125.
8. Field J. (2011), Psycholinguistics. In Routledge Handbook of Applied Linguistics, 1st edition, 1-28. https://www.researchgate.net/publication/348415435_Psycholinguistics
9. https://www.researchgate.net/publication/381317101_Generative_Grammar
10. https://studfile.net/preview/3602281/